Səh. 2 MÜƏLLİM SEÇKİ SÖZÜNÜN SİNONİMİ KİMİ
Səh. 3 MƏHƏRRƏM AYI KƏDƏR VƏ MATƏMİNİ KƏRBƏLADAN ALIR
Səh. 3 QARDABANİDƏ 3-CÜ İSTİLİK ELEKTRİK STANSİYASI İNŞA OLUNACAQ
Səh. 4 HANSI HALLARDA MƏKTƏBLƏRİN AÇILMASI TƏHLÜKƏLİDİR?
Səh. 4 MÜƏLLİMLƏR HANSI HALLARDA TİBBİ MASKA TAXMALIDIRLAR?
Səh. 4 MƏKTƏBLƏRDƏ BUFETLƏR FƏALİYYƏT GÖSTƏRƏCƏKMİ?
Səh. 5 İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA
Səh. 7 AVROPA İTTİFAQI İLƏ YAXINLAŞMA BİZƏ NƏLƏRƏ BAŞA GƏLDİ?

İCTİMAİ QƏZET yeni_yol@mail.ru იენი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 AVQUST
2020-Cİ İL
№011 (115)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## AVQUSTUN 25-İ MATƏM GÜNÜ ELAN OLUNDU




Duşeti bələdiyyəsində 17 nəfərin ölümü ilə nəticələnən faciəvi yol qəzası ilə bağlı avqustun 25-i ölkədə matəm günü elan olunub.

Bu barədə ölkənin baş naziri Giorgi Qaxaria müvafiq qərar imzalayıb.

Qərara əsasən, 25 avqust ölkə ərazisində bütün dövlət qurumlarının binalarında bayraqlar endirilib və qəzada dünyasını dəyişənlərin xatirəsi yad olunub.

Qeyd edək ki, avqustun 23-ü Gürcüstanın Duşeti bələdiyyəsində mikroavtobus 80 metrə yaxın hündürlükdən dərəyə aşıb.

## UŞAQ BAĞÇALARININ AÇILMASI TARİXİ UZADILDI



Gürcüstanda uşaq bağçaları oktyabrın 1-dən fəaliyyətə başlayacaq. Bu haqda qərarı Dövlət Qurumlararası Koordinasiya Şurası qəbul edib.

Baş nazir Giorgi Qaxaria sosial şəbəkədə teatrların oktyabrın 1-dən fəaliyyətə başlayacağını da yazıb.

"COVID-19-la mübarizədə ardıcıl yanaşmamıza davam edirik və açılışlar mərhələli şəkildə aparılır – 1 oktyabrdan uşaq bağçaları və teatrlar, 15 sentybardan məktəb və kinoteatrlar fəaliyyətə başlayacaq", - baş nazirin rəsmi feysbuk səhifəsində qeyd olunub.

Qeyd edək ki, bundan öncə bağçaların sentyabrın 14-də açılacağı bildirilmişdir.

## PARLAMENT SEÇKİLƏRİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN 59 PARTİYA QEYDİYYATDAN KEÇİB



Mərkəzi Seçki Komissiyasında (MSK) 2020-ci ilin parlament seçkilərində iştirak etmək üçün 59 siyasi partiya qeydiyyatdan keçib. Bununla partiyaların bir qisminin qeydiyyatı başa çatıb.

MSK sədrinin bəyanatına əsasən, bu ilin yanvarın 1-dən iyulun 15-dək 68 siyasi partiya MSK-ya qeydiyyat üçün müraciət edib. Qanunla müəyyən edilmiş müddətdən sonra 4 partiyadan müraciət daxil olub. 13 partiya qeydiyyatla bağlı imtina cavabı alıb. Qanunvericiliyə əsasən, partiyalar qeydiyyat üçün seçkilərə ən azı 57 gün qalmış MSK-ya müraciət edə bilərlər.

Siyasi partiyaların qeydiyyat prosesi 2020-ci ilin 29 iyun tarixində qəbul edilmiş konstitusiya dəyişikliklərinə uyğun olaraq həyata keçirilir.

## GÜRCÜSTANDA KORONAVİRUSDAN ÖLƏNLƏRİN SAYI 19 NƏFƏRƏ ÇATIB




Gürcüstanda koronavirusdan ölənlərin sayı 19 nəfərə çatıb.

Bu barədə hökumətin koronavirusla bağlı yaratdığı xüsusi rəsmi saytında (www.stopcov.ge) bildirilir.

Avqustun 31-nə olan məlumata əsasən, ölkədə koronavirus təsdiqlənmiş şəxslərin sayı 1487 nəfər, sağalanların sayı isə 1240 nəfərdir.

Hazırda ölkə üzrə karantin rejimində 5524 nəfər, stasionar nəzarətdə 221 nəfər saxlanılır.

Xaricdən müalicə üçün ölkəyə gətirilən Gürcüstan vətəndaşlarının sayı isə 41 nəfərdir.



# MÜƏLLİM SEÇKİ SÖZÜNÜN SİNONİMİ KİMİ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Yeni dərs ilinin başlaması ilə "Yeni Yol"un sentyabr ayının ilk sayının nəşri üst-üstə düşəcəyi üçün 15 sentyabr bizlər üçün də bayramdır. Bizlər də maarifləndirmə ilə məşğul olduğumuza görə məktəbə ilk qədəm basan birincilərin, məktəb üçün doğma evi kimi darıxan müəllimlərin, övladlarını təhsilə uğurlayan valideynlərin sevincinə şərik oluruq və pandemiyaya baxmayaraq ölkəmizdəki epidemioloji vəziyyətin məktəblərin açılmasına təhlükə yaratmadığına görə 15 sentyabrı bayram kimi qarşılayan hər bir kəsi təbrik edirik!

Məktəblərin fəaliyyətinin bərbası bizim üçün həm də oxucularla görüş deməkdir, çünki oxucularımızın çoxu rəqəmsal informasiyanın bol və hər yerdə əlçatan olduğu bir dövrdə qəzet oxumağa sadiq qalan müəllimlərdir. Var olsunlar!

Rəqəmsal demiş, sentyabrdan "Yeni Yol"un saytı da fəaliyyətə başlayacaq. "Yeni Yol" qəzetindəki köşə yazılarını, tərcümələri, digər müəllif yazılarını və sair bundan sonra "yeniyol.ge" ünvanında da oxumaq mümkün olacaq. Bunu "zəmanəylə ayaqlaşmaq"dan daha çox qəzeti əldə edə bilməyənlər üçün xidmət kimi dəyərləndirsək daha doğru olar məncə. Necə deyərlər, Vətənə, millətə xeyirli olsun!

Qarşıdan gələn aylarda bizi həm də parlament seçkiləri gözləyir. Sentyabrda tədris prosesinin bərpası, oktyabrda yeni qayda ilə keçiriləcək seçkilər koronavirusun yaratdığı boz monotonluğa bir az rəng qatmış olacaq. Bu rəngin soyuq ya isti çalarlardan ibarət olacağını isə seçkilərdən sonra biləcəyik. Necə deyərlər, cücəni payızda sayarlar. Seçki bülletenlərini də payızda sayacaqlar.

Seçkilər demiş, Gürcüstanın Seçki Məcəlləsinə müəllimlərin seçki kampaniyalarında iştirakı ilə bağlı dəyişiklik edilib. Dəyişikliyə əsasən, məktəb müəllimləri iş saatlarında, vəzifələrini yerinə yetirdikləri vaxt seçki təbliğatı apara bilməzlər. Bu, qanunla qadağan olunur.

Məncə, bu, illərdir müəllimlərin boynunda yığılıb dağ olaraq başlarını aşağı əyən "seçkilərdə hakimiyyətin təbliğat və təşviqatçısı", "300-400 lariyə görə seçki saxtalaşdırmalarının könüllüləri" və sair qınaqları başlarını dik tutaraq boyunlarından atmaq üçün fürsətdir.

Müəllimin işi təhsil verməkdir, elm öyrətməkdir; vicdanlı, dürüst, savadlı, ədalətli, peşəkar insan yetişdirməkdir. Bunu mən indi yazmıram, bunu Şərqdən Qərbə, Şimaldan Cənuba hamı yaxşı bilir. Sadəcə olaraq bəziləri öz vəzifəsini, görəcəyi işi, harada olduğunu unudur. Müəllim seçki təbliğatı, təşviqatı aparmamalıdır, seçkilərin saxtalaşdırılmasında iştirak etməməlidir, qapı-qapı düşüb səs yığmamalıdır, müəllimi qapı-qapı düşüb gəzməyə yalnız bir səbəb vadar edə bilər – məktəbə uşaq yığmaq. Müəllim sistemin qulu olmamalıdır, sistemin ağası olmalıdır, deputatdan çox əmək haqqı almalıdır müəllim, alverçilərdən yaxşı yaşamalıdır. Məclislərin başında başı dik oturmalıdır, seçki saxtalaşdırmasında iştirak etdiyi üçün, partiyabazlıq etdiyi üçün, kiməsə səs topladığı üçün himayədarı sistem çökəndə məclislərdə boynubükük oturmamalıdır müəllim.

Bu gün bütün bu xoşagəlməz hadisələr baş verirsə günahkarı elə müəllim özüdür. Seçkilər yaxınlaşanda müəllimlər yada düşürsə, seçki saxtakarlığı haqqında danışılanda müəllim sözü sinonim kimi hallanırsa günahkar müəllim özüdür. Və bu artıq stereotipə çevrilib. Və bu qavrayış standartı vicdanlı, savadlı, ədalətli, müəllim kimi müəllimləri də öz içinə alır. Yenə də günah müəllim adını özünə iş yeri, qazanc yeri edənlərdədir.

Demək istədiyim odur ki, ən böyük məsuliyyət müəllimlərin üzərinə düşür. Bu şərəfli peşəni pul qazanmaq üçün gözdən salanların süysünündədir bütün günahlar. Onsuz da hamı əməlinə görə cavab verməli olacaq Tanrı və tarix qarşısında. Sadəcə olaraq, gec olacaq, gələcək, yeni nəsil tənəzzülə uğrayacaq. "Müəllimlər, yeni nəsil sizin əsəriniz olacaqdır!" deyib Mustafa Kamal Atatürk. Bu əsərin portret janrında olmayacağı ümidi ilə yeni tədris ilində uğurlar diləyirik!

## TBİLİSİDƏN İSTANBULA UÇUŞLAR BƏRPA EDİLİB




Türkiyənin Gürcüstandakı səfirliyinin yaydığı məlumata əsasən, "Türk Hava Yolları" aviaşirkəti Tbilisidən İstanbula uçuşları bərpa edib.

Birtərəfli reyslər avqustun 29-dan sentyabrın 26-dək hər şənbə günü həyata keçiriləcək.

Aviaşirkət Tbilisi-İstanbul uçuşlarına bilet satışına avqustun 20-dən başlayıb.

## UŞAQLAR ÜÇÜN 200 LARİ SENTYABRIN 1-DƏN ÖDƏNİLƏCƏK



Hökumətin mətbuat xidmətinin məlumatına əsasən, uşaqlar üçün 200 lari məbləğində birdəfəlik sosial yardımın köçürülməsinə sentyabrın 1-dən etibarən başlanılacaq.

Qeyd olunub ki, banka borcu olan şəxslər də bu yardımdan kənarda qalmayacaqlar. Bu barədə razılıq baş nazir Giorgi Qaxarianın kommersiya banklarının rəhbərləri ilə görüşündə əldə olunub.

Razılaşmaya əsasən, əgər yardım alan şəxsin bank qarşısında kredit öhdəliyi varsa, bank onun ödənilməsi üçün həmin sosial yardımdan istifadə etməyəcək. Banklar artıq bu məsələ ilə bağlı işə başlayıblar.

Xatırladaq ki, qeydiyyat "daxmareba.moh.gov.ge" saytında bu ilin dekabrın 1-dək davam edəcək.

## TÜRKİYƏNİN ALİ MƏKTƏBLƏRİNDƏ GÜRCÜ DİLİ VƏ ƏDƏBİYYATI TƏDRİS OLUNACAQ



Gürcüstanın Türkiyədəki səfiri Giorgi Cancqavanın bildirdiyinə görə, 2020-2021-ci tədris ilində Türkiyənin ali məktəblərində onlarla tələbə gürcü dili və ədəbiyyatını öyrənəcək.

Səfir Türkiyənin Ali Təhsil Şurasına minnətdarlığını bildirib: "Məhz bu qurumun birbaşa iştirakı ilə gürcü dili və ədəbiyyatı istiqamətinə tələbələrin qəbulu qaydalarına dəyişikliklər edilib. Bunun nəticəsində ali məktəblərdə bu istiqamətdə tələbə kvotasının tam istifadəsi imkanı yaranıb".

## BEYNƏLXALQ AVİAREYSLƏRƏ TƏTBİQ OLUNAN MƏHDUDİYYƏTLƏRİN VAXTI UZADILDI



Beynəlxalq müntəzəm aviareyslərə tətbiq olunan məhdudiyyətlərin müddəti sentyabrın 30-dək uzadıldı. Bu barədə Gürcüstanın Mülki Aviasiya Agentliyindən bildirilib.

Qeyd olunub ki, məhdudiyyətlər Münhen, Paris və Riqa istiqamətlərinə uçuşlara şamil olunmayacaq.

Gürcüstan digər istiqamətlər üzrə müntəzəm hava əlaqəsinin mərhələli şəkildə bərpasına dair qərarları epidemioloji vəziyyətdən asılı olaraq qəbul edəcək.

## XİDMƏT SAHƏLƏRİNDƏ ÇALIŞANLAR KORONAVİRUS TESTİNDƏN KEÇİRİLƏCƏK

Dövlət Qurumlararası Koordinasiya Şurasının qərarına əsasən, Gürcüstanın kurort bölgələrində fəaliyyət göstərən mehmanxana, kafe, restoran, klub və barların işçi heyətləri koronavirusla bağlı test olunacaqlar.

Qərar istirahət zonalarında turistlərin sayında artımın olması ilə bağlı verilib.

Qeyd olunub ki, intensiv testlərin aparılması COVID-19-a qarşı mübarizəyə kömək olacaq.

## GİORGİ QAXARİA: MARNEULİDƏ GÖRÜLMƏLİ İŞLƏR ÇOXDUR



"Marneuli güclü bölgə olsa da, rayonda infrastruktur baxımından görülməli işlər çoxdur". Bu barədə Marneulidə səfərdə olan Gürcüstanın baş naziri Giorgi Qaxaria bildirib.

O deyib ki, bu gün Marneulidə içməli su və kanalizasiya sisteminin inşası davam etdirilir: "Layihənin həyata keçirilməsinə dövlət büdcəsindən 200 milyon lari vəsait ayrılıb. Tikinti işləri başa çatandan sonra Marneuli və ətraf kəndlər 24 saat fasiləsiz su ilə təmin olunacaqlar".

Hökumət başçısı Marneulidə suvarma su sistemi ilə bağlı problemlərin olduğunu qeyd edib: "Marneulidə çoxlu işlər görülür, lakin biz bunun kifayət qədər olduğunu demirik. Biz sabahı bu gündən daha yaxşı etməliyik".

G.Qaxarianın sözlərinə görə, Marneuli kənd təsərrüfatı baxımından Gürcüstanın ən inkişaf etmiş bölgəsidir: "2013-cü ildə Gürcüstandan 511 milyon dollar dəyərində kənd təsərrüfatı məhsulları ixrac olunub. 2019-cu ildə bu göstərici 900 milyon dollara çatıb. İxrac təxminən iki dəfə artıb və burada Marneulinin də payı var".

Baş nazir bildirib ki, Marneulidə 8 məktəb bərpa, 3 məktəb isə inşa olunur: "Biz təhsil sistemində islahatları da diqqət mərkəzində saxlamalıyıq. Gürcüstanın bütün vətəndaşları gürcü dilini bilmədirilər ki, onların dövlət qurumlarında karyera yolları açıq olsun".

## BARIŞIQ VƏ VƏTƏNDAŞ BƏRABƏRLİYİ MƏSƏLƏLƏRİ ÜZRƏ YENİ DÖVLƏT NAZİRİ QARACALARDA YARDIM PAYLAYIB



Gürcüstanın barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri Tea Axvlediani Qardabani bələdiyyəsinin Qaracalar kəndində olub.

T.Axvlediani baş nazirin insan haqları üzrə müşaviri Lela Akiaşvili və Kvemo Kartli bölgəsinin qubernatoru Şota Rexviaşvili ilə birgə kənddə yaşayan sosial təminatsız ailələrə baş çəkib.

Dövlət nazirinin Aparatının təşkilatçılığı və UNICEF təşkilatının maliyyə dəstəyi ilə sosial müdafiəsiz 82 ailəyə qida məhsulları və gigiyenik vasitlərdən ibarət bağlamalar təqdim olunub.

## QARDABANİDƏ 3-CÜ İSTİLİK ELEKTRİK STANSİYASI İNŞA OLUNACAQ



Qardabanidə müasir tipli kombinə edilmiş "Qardabani 3" istilik elektrik stansiyası (İES) inşa olunacaq.

Ölkənin Neft və Qaz Korporasiyası bununla bağlı beynəlxalq təkliflər sorğusu elan edib.

Qardabani bələdiyyəsində 272 MVt gücə malik üçüncü İES-in tikintisi ilə bağlı qərar 2019-cu ildə qəbul olunub. Enerji obyektinin 2023-cü ildə istismara verilməsi planlaşdırılıb.

Yeni stansiya korporasiyaya məxsus torpaq sahəsində - "Qardabani 1" və "Qardabani 2" İES-lərinin yaxınlığında tikiləcək. Podratçı şirkətin tikintidə çalışacaq işçilərin ən azı 50%-nin Gürcüstan vətəndaşlarından ibarət olması ilə bağlı öhdəliyi olacaq.

Korporasiyadan bildirilib ki, yeni İES-in inşası strateji əhəmiyyətli layihədir. Stansiya ölkənin enerji sisteminin işini daha etibarlı etməklə yanaşı enerji təhlükəsizliyini əhəmiyyətli dərəcədə artıracaq və idxal olunan elektrik enerjisindən asılılığı azaldacaq.

Qeyd edək ki, Gürcüstanda ilk İES 2015-ci ildə, sonuncusu isə bu ilin yanvarında istifadəyə verilib.

*Mənbə: report.az*

## MƏHƏRRƏM AYI KƏDƏR VƏ MATƏMİNİ KƏRBƏLADAN ALIR



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

İnsanlar tarix içərisində bəzi mühüm hadisələri təqvimin başlanğıcı olaraq qəbul etmişlər. Bu gün xristian olan Qərbə uyğun olaraq istifadə etdiyimiz miladi tarix də guya Hz. İsanın doğum tarixidir deyə başlanğıc qəbul edilmişdir.

Peyğəmbərimizin (s.ə.s) Mədineyi-münəvvərəyə hicrətindən sonra çox böyük inkişaf etmiş bu nurlu şəhərdən yayılan İslam nuru bütün dünyanı işıqlandırmışdır. Bu baxımdan hicrət hadisəsi İslam tarixinin dönüş nöqtəsi olmuşdur. Həzrət Peyğəmbərin Mədinəyə hicrəti Məhərrəm ayında olduğu üçün bu ayın İslam dünyasında xüsusi yeri var. Həmçinin bu ayda və Məhərrəm ayının 10-cu günü olan Aşura günündə bir çox tarixi hadisə baş vermişdir.

Hz. Adəmin (ə.s.) tövbəsinin qəbul edilməsi, Hz. Nuhun (ə.s.) gəmisinin Cudi dağına çıxması, Hz. Yunusun (ə.s.) balığın qarnından xilas olması, Hz. Əyyubun (ə.s.) xəstəliyindən şəfa tapması, Hz. Davudun (ə.s.) tövbəsinin qəbul edilməsi, Hz. İbrahimin (ə.s.) oğlu Hz. İsmayılın doğulması, Hz. Yusifin qardaşlarının atmış olduğu quyudan çıxarılması, Hz. Yaqubun (ə.s.) oğlu Hz.Yusifin həsrəti ilə tutulan gözlərinin görməyə başlaması, Hz. Musanın (ə.s.) dənizi yarıb keçməsi, Hz. İsanın (ə.s.) dünyaya gəlməsi və səmaya yüksəlməsini Məhərrəm ayında və Aşura günündə baş vermiş hadisələr olaraq saya bilərik.

Göründüyü kimi, Məhərrəm ayı dinlər tarixində yaşanmış olan böyük hadisələri içində saxlayır. Bu hadisələrdən bəziləri möminlər üçün sevinc və qurtuluş vəsiləsi ikən, bəziləri kədərli günlərdir. Rəsulullah (s.ə.s) və səhabələrinin hicrəti bu ayda reallaşmışdır.

Mahi-matəm (yas ayı) olaraq da adlandırılan Məhərrəm ayı kədər və matəmini isə Kərbəla hadisəsindən alır. Qüdsiyyəti səbəbi ilə müqəddəs Məhərrəm də deyilir bu aya.

"Həqiqətən, Allah yanında ayların sayı göyləri və yeri yaratdığı gündən bəri Allahın kitabında on ikidir. Onlardan dördü haram aylardır..." (Tövbə surəsi, 9/36) Ayədən də aydın olduğu kimi, Məhərrəm ayı haram qılınmış aylardandır. İçində qan tökmənin haram olduğu aylardandır… Nə qəmlidir ki, qan tökmənin haram olduğu bu ayda ən müqəddəs qanlar töküldü, həm də müsəlmanların əli ilə.

Hicrətdən Kərbəlaya acılı və ağrılı bir yol vardır. Məkkədən Mədinəyə hicrət ilə Kərbəla hadisəsi arasında 60 il ara olsa da, hər iki hadisə eyni ay və günlərdə yaşanmışdır. Məhərrəm ayı hər ikisinə də şahidlik etmişdir. Birində müqəddəs Peyğəmbər İslamı yaşamaq üçün yurd taparkən, digərində nəvəsi, peyğəmbər şəhəri də daxil olmaq üzrə İslamı yaşayacaq yer tapa bilməyib yurdsuz qalmışdır. Kərbəla yurdsuz və sahibsiz qalmışların faciəsi və yurdudur. Məhcurların (tərk edilmiş və sahibsiz buraxılmışların) yurdu.

Quranın müsəlmanların əlində məhcur qaldığı dövrlərdə Quran əhli də məhcurlaşır. Rəsulullah (s.ə.s) yalnız Quran üçün şikayətçi olacaq, əlbəttə. Çox təbiidir ki, Cənnət reyhanları üçün də şikayətdə olacaq Rəbbinə. Və şikayət edəcəyi kəslərin başında özüylə hicrət edən mühacirlərin və hicrətlərinə qucaq açan ənsarın uşaqları gələcəkdir. Çünki sevimli nəvələrini onlar qətl etmişdir.

Qanlarının tökülməsi ən haram olan kəslərin qanları, qan tökmənin ən haram olduğu ayda həm də müsəlmanlar tərəfindən töküldü. Həm də haram ayların müqəddəsliyinə və haramlığına inandıqları halda…

Bir nəfər "ehram halında paltara ağcaqanad qanı bulaşdığı, yaxud bir ağcaqanad öldürdüyü zaman nə etmək lazım gələcəyini" İbn Ömərdən soruşur. İbn Ömər adamın İraqlı olduğunu öyrənincə: "Baxın, Rəsulullahın (s.ə.s) nəvəsini öldürdülər və indi mənə ağcaqanadın qanından ötrü nə etmək lazım gələcəyini soruşurlar", deyə danlayır.

Necə oldu ki, İslam üçün bütün varlıqlarını fəda edən, hər şeylərini buraxaraq hicrət edənlər ilə hər şeyi gözə alıb hicrətə qucaq açanların uşaqları bu hala gəldi?! Bu müddətin çox yaxşı təhlil edilməsi və səbəblərinin yaxşı görülməsi lazımdır.

Günümüzün müsəlmanları o dövrün müsəlmanlarını bu fitnəyə salan səbəblərdən uzaq deyil. Dünyalıq, mövqe, mal-mülk əldə etmək üçün dinlərini satan müsəlmanlar bu gün də az deyil. Zamanın Hüseynlərinə işgəncə edən, onları şəhid edənlər dəstəmazlı, namazlı müsəlmanlardır! Eynilə Kərbəlada Hz. Hüseyni qətl edənlər kimi. Hz. Hüseyn şəhid edilmədən əvvəl son namazını (günorta) qısaldaraq qılarkən, onu öldürəcək olan sistem müsəlmanları namazlarını tam olaraq qılırlar.

Kərbəla bu gün yaşansaydı bu hadisəyə gözyaşı tökən bir çox müsəlman bəlkə əlində qılınc Hz. Hüseynin qarşısında olacaqdı.

Hz. Hüseynin hər şeyi gözə alaraq girdiyi bu savaş biz müsəlmanların birliyi və bərabərliyi uğrunda idi. Elə isə, gəlin bizlər də birlik olub İslam yolunda çalışaq.

# HANSI HALLARDA MƏKTƏBLƏRİN AÇILMASI TƏHLÜKƏLİDİR? SƏHİYYƏ NAZİRİNİN MÜAVİNİNİN AÇIQLAMASI

**15 sentyabrdan tədris ilinin başlaması və davamı üçün bugünkü baxışla vəziyyət stabildir. Bu haqda səhiyyə nazirinin müavini Tamar Qabunia "İmedi" teleşirkətinin efirində bildirib.**

**O, başqa ölkələrdən misal çəkərək məktəblərdə tədris prosesinin hansı hallarda təxirə salınmasından danışıb.**

*"Bizə qədər də məktəblərin bağlanması və açılması təcrübəsindən bir çox ölkələr keçib. Ümumiyyətlə, koronavirus təhsil prosesinə ciddi təsir göstərdi. UNESCO-nun göstəricilərinə görə, təxminən şagirdlərin 60%-i bütün ölkələrdə müvafiq manea rejiminə düşüb və buna COVID-19-la bağlı məhdudiyyətlər səbəb olub.*

*Müxtəlif ölkələr müxtəlif vaxtlarda və fərqli şərtlərlə məktəbləri açmağa başladı və əsas şərt, əlbəttə, ölkədə təhlükəsiz epidemioloji vəziyyətin olmasıdır. Təhlükəsizlik meyarı və ölçüsü müxtəlif ölkələrdə fərqlidir. Ancaq bir çox ölkələr testlə COVID-19-un nə qədər müsbət halının aşkarlanma dərəcəsinə istinad edirlər. 5% qəbul olunan göstəricidir. Əgər ölkədə aparılan test nəticəsində 100 nəfərdən 5-də koronavirus varsa, bu o deməkdir ki, risk yüksəkdir. Bizdə bu göstərici 1%-dən aşağıdır. Bu isə xoş ümidlər bəslənən epidemioloji vəziyyət yaradır. Belə ki, bu vəziyyətdə məktəbləri açmaq təhlükəsizdir və yetərincə uzunmüddətli perspektivdən söhbət aça bilərik. Çünki epidemioloji tendensiyalar bugünkü vəziyyətdən irəli gələrək həqiqətən də dramatik artım proqnozu verməyə əsas vermir"*, - deyə T.Qabunia bildirib.

**Onun sözlərinə görə, ehtiyatlı olmaq vacibdir və nazirliyin mütəxəssisləri epidemioloji vəziyyətin inkişafına diqqətlə nəzarət edəcəklər:**

*"Koronavirusun yayılma tendensiyaları hələ sonuna qədər araşdırılmayıb. Amma indiki mərhələdə bugünkü epidemioloji vəziyyətin məktəblərin açılması üçün ümidverici şərait yaratmasına əsas var. Yaxın araşdırmalardan irəli gələrək uşağın koronavirusun daşıyıcısı və ötürücüsü olması az rast gəlinən haldır və bu da ümidverici məlumatdır. Bizim maskaların spesifik qaydada taxılması haqda danışmağımız və maska taxmağı yalnız pedaqoji heyətdən tələb etməyimiz də yeni sübutlara əsaslanır. Bu sübuta əsasən, yetkin adam daha çox infeksiyaya yoluxur və ötürür. 15 sentyabrda təhsil prosesinin başlaması və davam etdirilməsinə zəmanət verməyimiz üçün bugünkü vəziyyət stabildir".*



**Nazir müavininin açıqlamasına görə, məktəblərdə koronavirusa yoluxmanın qarşısının alınması üçün 5 qızıl qayda var və bu qaydalar tövsiyələrdə qeyd edilib.**

*"Bu, əlbəttə, maska taxmağa da aiddir. Maskadan istifadə etmək bütün məktəblərdə, təhsil mühitində olan şəxslərə vacib olacaq. Təkcə şagirdlər maska taxmaqdan azaddırlar. Digər qaydalar isə, yenə də gigiyena və məktəbin, uşaqların və heyətin dezinfeksiya vasitələri ilə təmin edilməsidir. Bu, spirt tərkibli dezinfeksiya vasitəsidir və əllərin təmizlənməsi üçün çox effektivdir. Ayaqyolunda, eləcə də sinif otaqlarında gigiyenik normalar və qaydaların qorunması. Otaqların havalandırılması – bu, çox vacib olan faktordur və ən vacib qayda sosial məsafəni qorumaqdır"*, - T.Qabunia bildirib.

**O vurğulayıb ki, valideynlər hərarəti olan uşaqları məktəbə göndərməməlidir:**

*"Bu heç koronavirusa qədər də xoşagələn hal deyildi və indi daha da risklidir. Ona görə də, bütün valideynlərdən xahiş edirik ki, uşağın temperaturu varsa, öskürək və respirator simptomlar qeydə alınırsa onu məktəbə göndərməkdən çəkinsinlər. Lakin əgər hərarəti olan uşaq artıq məktəbə gedibsə, xüsusi təcrid edilmiş otaqlar var ki, uşaq orada həkimi, yaxud valideyni gözləməli olacaq".*

## MÜƏLLİMLƏR HANSI HALLARDA TİBBİ MASKA TAXMALIDIRLAR?



Müəllim dərs prosesi zamanı şagirdlərlə özü arasında 2 metrlik məsafə saxlamadığı halda maska taxmağa məcburdur. Bu haqda Gürcüstanın İşğal Edilmiş Ərazilərdindən Məcburi Köçkünlərin İşləri, Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyi tərəfindən məktəblərə verilmiş tövsiyələrdə yazılıb.

Qeyd edək ki, şagirdlərdən fərqli olaraq müəllimlərin, əməkdaşların və digər şəxslərin məktəb binasına daxil olması yalnız maska taxdıqları halda mümkündür. Vacib hallarda isə başqa fərdi qoruyucu vasitələrdən – qoruyucu örtük/qoruyucu eynək, geyimdən istifadə etməlidirlər.

Tövsiyələrə əsasən, müəllim tərəfindən istifadə olunan jurnal infeksiyanın yayılmasının əsas vasitələrindən biri ola bilər. Buna görə məqsədəuyğundur ki, jurnallar elektron qeydə alma ilə əvəz olunsun. Bu mümkün olmazsa hər dəfə jurnaldan istifadə etməmişdən əvvəl və sonra əllərin uyğun qaydada yuyulması həyata keçirilməlidir.

Həmçinin müəllim qruplarda çox işlənən əşyalardan maksimum dərəcədə az istifadə etməlidir. Vacib olduğu halda isə həmin əşyalardan istifadə etməmişdən əvvəl və sonra əllərin yuyulmasını qeyd etməlidir.

## MÜƏLLİMLƏRLƏ BAĞLI SEÇKİ MƏCƏLLƏSİNƏ DƏYİŞİKLİK EDİLİB




Gürcüstanın Seçki Məcəlləsinə məktəb müəllimlərinin seçki kampaniyasında iştirakı ilə bağlı yeni qeyd daxil edilib. Dəyişikliyə əsasən, ictimai məktəb müəllimlərinə iş saatlarında və vəzifələrini yerinə yetirdikləri zaman seçki təbliğatı aparmaq qadağan olunur. İndiyə kimi oxşar məhdudiyyət dövlət məmurlarına aid idi. Ancaq pedaqoqlar rəsmi qaydada dövlət məmuru kateqoriyasında nəzərdə tutulmur.

Səsvermə günündən 60 gün əvvəl konkret şəxslərin və məmurların seçki kampaniyasına qoşulması ilə bağlı məhdudiyyətlər rəsmi olaraq qüvvəyə minəcək.

Seçki Məcəlləsinə daxil edilmiş dəyişikliklərə əsasən, müəllimləri iş saatında heç kim seçki ilə bağlı görüşlərə, tədbirlərə apara bilməz. Ancaq bu, müəllimlərin qeyri-iş vaxtlarında seçki təbliğatında iştirak etmək hüququnun olmaması demək deyil. Məcəllədə ali və peşə təhsili müəssisələrinin əməkdaşları ilə bağlı fərqli qeyd mövcuddur. Onlar istisna olunan siyahıya daxildirlər və seçki təbliğatı onlar üçün qadağan deyil.

"Hər bir şəxsin seçkiqabağı təbliğat aparmaq və təbliğatda iştirak etmək hüququ var. Yalnız qeyd olunanlar istisnadır: ictimai hüquqi şəxslərin əməkdaşları (ali və peşə təhsil müəssisələrinin, dini təşkilatların və Gürcüstanın Vəkillər Assosiasiyasının əməkdaşlarından başqa), dövlət, yaxud bələdiyyə tərəfindən təsis edilmiş qeyri-kommersiya hüquqi şəxslərin əməkdaşları, ictimai məktəb müəllimləri (iş saatı, yaxud vəzifələrini yerinə yetirən zaman)", - Gürcüstanın Seçki Məcəlləsində qeyd olunub.

## MƏKTƏBLƏRDƏ BUFETLƏR FƏALİYYƏT GÖSTƏRƏCƏKMİ?

Təhsil və Səhiyyə nazirlikləri koronavisurun yayılmasının qarşısının alınması məqsədi ilə məktəblərə tövsiyələr təqdim edib. Belə ki, məktəb bufetləri ilə bağlı qeyd olunan tövsiyələrə əməl edilmədiyi halda bufetlərə/yeməkxanalara fəaliyyət göstərmək hüququ verilməyəcək. Həmçinin müəllimlər sinif otaqlarında nahar üçün tənəffüs qaydası təşkil etməlidirlər.

**Qida obyektləri üçün tələblər isə belədir:**

• Məktəb bufetinin/yeməkxananın fəaliyyətinə "İş yerlərində yeni koronavirusun (COVID-19) yayılmasının qarşısının alınması məqsədi ilə tövsiyələrin təsdiqlənməsi haqda" Gürcüstanın işğal edilmiş ərazilərindən məcburi köçkünlərin işləri, əmək, səhiyyə və sosial müdafiə nazirinin 2020-ci ilin 29 may 01-227 nömrəli sərəncamının 17 nömrəli əlavəsinin "yeni koronavirus infeksiyası ilə bağlı ictimai qida obyektləri üçün ümumi tövsiyələr"i qane etdiyi halda icazə veriləcək;

• Şagirdlərin sırada növbə gözlədiyi zaman təhlükəsiz şəkildə məsafə saxlaması mümkün olmadığı halda bufetin/yeməkxananın fəaliyyəti yolverilməzdir;

• Bufetdə/yeməkxanada bütün su kranlarının qaydasında işləməsi vacibdir;

• Bufetin/yeməkxananın girişinə yaxın, daxili məkanda əlüz yuyanlar olmalıdır.

• Qida qəbulundan əvvəl su və sabunla əlləri yumaq məcburidir (qida qəbulundan əvvəl sanitayzerlə əlləri təmizləmək tövsiyə olunmur);

• Hərəkəti maksimum məhdudlaşdırmaq məqsədi ilə naharı yemək qutusunda (lanç-boks) gətirmək və nahar üçün sinif otağında tənəffüs təşkil etmək məsləhətdir;

**Məktəb rəhbərliyi yeməkxanalarda şagirdlərin sırada duran zaman məsafə saxlamasını nə dərəcədə təmin edə biləcək? Belə şəraitdə maksimum 10 dəqiqəlik tənəffüs zamanı neçə şagird nahar edə biləcək və onların yeməkdən əvvəl əllərini su və sabunla yumasına kim nəzarət edəcək? Daha bir problem odur ki, şagirdlər öz partalarında yemək yeməli olacaqlar və bu, şagirdlərin fərqli rasionuna görə çətinliklər yaradacaq.**

**Bu məsələ ilə bağlı məktəblər hansı qərar qəbul edəcək və qeyd olunan problem necə həll ediləcək, bunu yeni tədris ilinin başlanğıcında biləcəyik.**

Xatırladaq ki, məktəblərdə dərslər sentyabrın 15-i başlayacaq.

*Səhifəni hazırladı:* ***Aynurə ƏLİYEVA***

# İOSİF QRİŞAŞVİLİNİN “QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI” ƏSƏRİNDƏN BİR PARÇA

## ĞEENOBA (XAN OYUNU)



*(əvvəli ötən sayda)*

“Bildiyimiz kimi, qədim Tiflis tədricən öz köhnə simasını itirir. Gələcəkdə dəyərli materiallar izsiz-tozsuz itməsin deyə, Tiflis Şəhər Şurası Muzeyi yaxın gələcəkdə sərgi təşkil edir: Qədim Tiflis”. *(Bax. “Muşa” (“Fəhlə”), 1926-cı il, 3 dekabr, №1212.)*

Bu cür bəyanatla Tiflis munisipaliteti dekabrın 3-ü 1926-cı ildə çıxış etmişdir.

Fərəhlə qeyd etmək lazımdır ki, bizim məruzənin oxunmasından sonra *(“Qədim Tiflisin ədəbi boheması” lap başdan ilk dəfə olaraq məruzə şəklində Tiflisdə, dövlət konservatoriyası salonunda (1926-cı il mayın 23-də), Təhsil İşçiləri Evində (1926-cı il iyunun 5-də), dövlət universitetinin kiçik müəllimlər kollegiyasının ictimai iclasında (1927-ci il 9 mart), Çiaturada (1926-cı il iyunun 11-də), Zestafonidə (1926-cı il iyunun 12-də), Kutaisidə (1926-cı il iyunun 13-də), Oçamçiredə ( 1927-ci il fevralın 13-də) və Zuqdididə (1927-ci il fevralın 15-də) oxunmuşdur)* paralel olaraq bizim əsərlə birlikdə demək olar ki, real illüstrasiya olaraq Tiflis Munisipaliteti Muzeyinin əsası qoyuldu ki, burada da oxucu Tiflisin bəzi görkəmli abidələrini görəcək və onlarla tanış olacaq *(Bu sərgi barədə mənim yazıma bax: “Tiflis Munisipaliteti Muzeyi” (“Tiflis Şurasının xəbərçisi”, 1927-ci il, №5).*

Məgər şəhər şurasının çağırışında haqlı olaraq deyilməmişdirmi ki, “Tiflis tədricən öz köhnə simasını itirir?” Məgər doğru deyilmidir ki, qədim Tiflisin ekzotik zərifliyi, qaraçoxelilərin tarixi vətəndaş, istərsə də ailə adətləri və şəhər şifahi xalq ədəbiyyatının gözəl nümunələri gözlə qaşın arasında itir?

Mən qədim Tiflisin trubaduru (gəzərgi şairnağməkarı) və mühafizəçisi olaraq, köhnə kitabların güvəsi və sirdaşı olaraq, yaddaşımı səfərbər edərək təcrübəmi önə çəkib imkan daxilində hələ gec deyilkən himayəçisiz olan və hardasa köhnə ciyər kimi atılan bu gözəl guşəni təsvir etməyi özümə borc hesab etdim. Qoy, Tiflis muzeyinin yanında bu canlı söz də bizim tədqiqatçıların diqqətində qalsın. Qədim Tiflisin ədəbi boheması!

Lakin bu yazıçıların müzakirəsinə başlayana kimi bir az uzaqdan başlamağımız və qədim Tiflisin ekzotikasının və şəhər xalq poeziyasının xüsusiyyətlərinin əmələ gəldiyi məkanı, Tiflisi və həyat tərzini əks etdirən həyatı nəzərə almağımız lazımdır.

Bütün yazıçılar öz çevrələrinin doğma övladıdır, –

“Halallığa bağlı qardaş kimi”.

Deməli, bu çevrə ilə və onların adət-ənənələri ilə tanış olaq.

**Xan oyunu!**

Xan oyunu ümumi bayram xarakterinə malik kütləvi möhtəşəm əyləncə idi.

Bizim xan oyunu zahirən Avropa karnavalını və qismən maskaradı xatırladır.

G.Seretelinin sözləri ilə: “Bu özünün sevimli adəti ilə hər bir gürcü ildə bir dəfə aktyorluqla keçmiş tarixi mənzərəni göz önündə təsvir edir. Bu mənzərə nədən ibarət idi? Ondan ibarət idi ki, Gürcüstan millətini heç bir yad dinin camaatı uzun müddətə işğal edə bilməyib. Köhnə vaxtlarda müxtəlif ölkələrin xanları tez-tez hücuma keçiblər, lakin onların hökmranlığı uzun çəkməyib. Nəhayət, gec-tez Gürcüstan milləti ayağa qalxıb, “Onların baş ağacını qırıblar və boyunduruğunu atıblar” *(“Kvali”, 1893-cü il, №6).*



Elə həmin “Kvali” Yermolovun (A.D.Yermolov 1818-1826-cı illərdə Tiflisdə baş sərdar vəzifəsində işləmişdir - M.M.) vaxtında baş verən belə bir xan oyununu bizə təsvir edir:

**“Onda Sololak tərəfi inşa olunurdu. Baş sərdarlıq ətrafında Avropa memarlığı planı üzrə yeni məhəllə əmələ gəlirdi. Ğvelierinin (Pravoslavlarda ğvelieri böyük pəhrizdən bir həftə ərzində olan günlər, bu günlərdə yemək üçün süd məmulatı, yumurta və balığa icazə verilir - M.M.) son günləri yetişdi. Bütün Tiflis şəhəri: Avlabar, Narınqala və Çuqureti xan oyununa hazırlaşırdı. Seyidabadın sənətkarları, toxucuları, dülgərləri və dəmirçiləri çoxlu işlər götürmüşdülər. Onlar taxta xəncərlər və qılınclar, ələk həlqələrini və sapandlar hazırlayırdılar. Bütün şəhər iki məhəlləyə bölünmüşdür. Biri İsani idi, o birisi Narınqala. Narınqalaya Vera tərəfinin sakinləri meyl edirdilər. Yeni Sololak məhəlləsi də bunlara tərəf idi. İsani tərəfini Avlabar, Çuqureti, kənar məhəllələr yaxud Kukiya tərəfi təşkil edirdi. Narınqalanın sakinlərini Muxran-Batoni, Orbeliani, Barataşvili, Eristavi təşkil edirdi. İsani tərəfində Kaxeti mülkədarları: Cavcavadze, Çoloğaşvili, Vaxvaxişvili, Candieri, Corxadze və başqaları daxil idilər. Yermolov narınqalalıların tərəfini tuturdu. Xan isanililərdən çıxmalı və şəhərə hücuma keçməli, səhər bütün şəhəri işğal etməli və yol ayrıclarında öz məmurlarını yerləşdirməli idi ki, qoşun başçıları gəlib keçənlərdən xərac alaydı. Bu zaman Narınqalanın tərəfdarları da gizli olaraq öz qoşunlarını hazırlayırdılar. Tiflisin şəhər dükanları bağlandı və sakinləri xana tərəf idi, yarısı Sololak dərəsində gizləndi. Xan taxtını bu gün Nəbatat bağının yaxınlığında qədim qalanın xarabalıqlarının olduğu Seyidabad yüksəkliyində qurdu. Onun məmurları gəlib-gedənləri tutub pərəstiş etmək üçün xanın yanına gətirirdilər. Xan bu cür formada bütün Tiflis şəhəri üzərində günortaya kimi öz ixtiyarını davam etdirdi. Günorta çağında xana məlumat verdilər ki, ölkə qiyam qaldırdı, millət ondan yan durdu və gürcülər Sololak yüksəkliyində qərar tutdular. Xan elə həmin an döyüşmək üçün yola düşdü, lakin artıq gec idi. Xan Gürcüstanın qoşunlarına əsir düşdü”** *(“Kvali”, 1893-cü il, №6).*

Gördüyümüz kimi, xan oyunu öz ilkin siması ilə müharibənin mistikasını təşkil edirdi. Çoxu onda da bu mistifikasiyada yalnız asudə camaatın oynamasını görürdü. Çoxları üçün o, hələ yenə də yaşayan, xüsusən Gürcüstanın o dövrkü qabaqcıl ictimaiyyətində yaşayan sirli ürək niyyətlərinin bəlkə alleqorik təsviri idi. O dövrkü böyük əsilzadəliyin xan oyununa qarşı göstərdiyi maraq düşünməyə əsas verir ki, xan oyununu bizim tarixi qəhrəmanlıq dramları kimi vətənpərvərlik təbliğatının alleqorik formalarından birinə çevirmək istəyirdilər. Xan burada o dövrkü hökumətin tənqidi ifadəsinə də çevrilə bilərdi. Hökumətə qiyamı təqlid etmək, bu qiyamın komik personajının xana qarşı yönəldilməsinə baxmayaraq xoş gəlmirdi. Və buna görə də müharibə mistifikasiyası qadağan olundu. Bundan sonra xan oyununa adi proseslər və rəqs-tamaşa xarakteri verildi.

Ğvelierinin bazar ertəsi günü Tiflisin hər məhəlləsi öz məhəllə xanını çıxardırdı. Bu gün xan olaraq N.Berdzenovun (N.Berdzenişvili gürcü realist ədəbi tənqidinin ilk nümayəndələrindən olub - M.M.) dediyinə görə, “zehni açıq, baməzə və hərəkətdə olan” insanı seçirdilər *(“Кавказ”, 1850-cü il, №28).*

*(ardı səhifə 6-da)*

# İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA

## ĞEENOBA (XAN OYUNU)

*(əvvəli səhifə 5-də)*

Bu adamı gülməli fason bəzəyirdilər: Başına qənd kağızından düzəldilmiş uzunsov papaq örtmüş, bir əlində qılınc əvəzinə kəfkir, o biri əlində alma və ya soğanın keçirildiyi paslı şiş tutmuşdur. Boğazından saxta muncuqlar asılmışdır. Əynində tərsinə çevrilmiş dəri gödəkcə, onun üstündən də belinə quru otdan hörülmüş kəndir bağlanmışdır. Sifəti hisli idi və sair *(Bəzi xanın ağzına heyvan ayağının aşığı qoyulurdu ki, ordu domba görünsün, danışıq tərzi dəyişsin və iyrənc olsun ( "İveriya", 1889-cu il, №50)).* Budur, bu cür bəzənmiş xan dəvənin belində otururdu və həm də "berikula"( xalq oyunu - M.M.) fasonu geyinmiş camaat – xanın amkarı (həmkarı) zurna çalaraq hay-küylə onun arxasınca gedirdi. Prosesə bir neçə əli ağaclı başçılıq edirdi. Biri isə əlində böyük əsa tuturdu. O, bu əli ağaclıların başçısı (yol göstərəni) idi. Xanın məiyyəti gəlib-keçənlərin yolunu kəsir və xanın xeyrinə xərac ödətdirirdi: Hansısa əli ağaclı küçədən keçənin qabağını kəsirdi, çombağı onun önündə yerə vurur, zınqırovları cingildədir və "xanın salamını" ona yetirirdi. Bu o deməkidi ki, pul ödəməlisən. Xəzinədar pulu kisəyə qoyanda hündürdən çığırırdı: "Allah şen eləsin!" Əlində dəftər tutan xan isə daxil olmuş pulun miqdarını qeyd edirdi.

Bu başçı dükanlara da girirdi və bütün alverçilər onların boynuna qoyulan məbləği ödəməli idilər. Çox vaxtlar xəracı natura ilə də ödəyirdilər.

Bəzən xanı eşşəyin belində tərs otuzdururdular və əlinə bu "uzunqulaq Raşi"nin (Raşi – gürcü mifologiyasında qəhrəmanların iti qaçan və hər şeyə dözən atı - M.M.) quyruğunu verirdilər. Bəzən də xan gəzinmirdi. O, bir az yüksəkdə olan yerdə yerləşirdi. (Hazırda Tiflisdə Qldani-Nazaladevi rayonunda, Tbilisi su hövzəsinin şimal-qərb sahilində Xan dağı, Xan təpəsi adlanan yer var - M.M.) Səbətdə bardaş qurur və qəlyan çəkirdi, yanında dar ağacı qurulurdu, boynuna qoyulmuş xəracı ödəməyəni bu dar ağacı ilə hədələyirdilər.

Bəzi xanın yanında xanımı da olurdu (qadınsayağı geyinmiş oğlan) və dörd yanını nazir-vəziri bürüyürdü.

Bir məhəllənin xanı o biri məhəllənin xanı ilə görüşməməli idi, yoxsa, əgər köhnə vaxtlar qılınclarla və əlləklərlə mübarizə aparırdılarsa, indi döyüş dəyənəklərin göydə oynaması ilə başlayırdı.

Sonralar xan oyununun xarakteri dəyişdi və öz məğzi ilə o, cari siyasi həyatı əks etdirən karikaturaya və şarja çevrildi.

**"İveriya" bizə nəql edir ki, 1888-ci ildə "Bəzi məhəllənin xanı işdən qovulmuş "pyanitsa kapitanların" mundirini əyinlərinə geyinmişdirlər. Bəzisinin üzünə his çəkmək əvəzinə əldə qayırılmış maska taxılmışdır. Xanın özü tərsinə çevrilmiş dəri gödəkçə geyinmişdir və sair... – "İveriya" davam edir – Bir xanı dəvənin belində oturtmuşdular və başına da qənd kağızından qayırılmış papaq örtmüşdülər. Arabaya yenə Lukansk zavodunun topu qoyulmuşdur. Povozkaya (faytonun bir növü - M.M.) camışlar qoşulmuşdur, öndə yanları ilə nizəli əsgərlərin getdiyi əlləri qandallı dustaqlar irəliləyirdilər. Şəhər müdiriyyətinin önündə xaçlı polkovniki xan etmişdilər və kimsə vitsmundirli insan xərac toplayırdı... Hansısa bir məhəlləni Avropanın gərginləşmiş siyasi durumu bürüyüb və camışların qoşulduğu povozkaya general Bulanje və knyaz Bismarkı birlikdə atmışdılar, sanki onu demək istəyirdilər ki, Almaniya və Fransa birləşdilər"** *("İveriya", 1888-cu il, №49).*

"Xan oyunu" bayramının sonu belə idi: Günorta vaxtı xanı aparıb birbaş Kürə atırdılar. Əlbəttə, elə bir yerə ki, o, boğulmaya idi. Qrimlənmiş xan da fürsətdən istifadə edərək hisli-paslı üzünü yuyurdu. Sonra xərac qoyulmuş vətəndaşlardan yığılan pulla xan oyununun iştirakçıları azuqə alır və bütün həftə boyu onların Ortacalada, Kür qırağında, Vera bağlarında, Didubedə və sair yerlərdə bitib-tükənməyən kef məclisi qurulurdu.



Diqqətəlayiq haldır ki, bu xan oyunu böyük pəhrizin ilk günündə, şavorşabat (Qara şənbə - M.M.) adlanan gündə keçirilirdi. Bu xalq tamaşasının öz tarixi iddiası vardır. Artıq qeyd etdiyimiz kimi, gürcü xalqı farsların, istərsə də türklərin bir neçə hücumunu xatırlayır və güman ki, bu oyunbaz xan gürcü xalqının istehza ilə uydurduğu məğlub olmuş düşmənin təsviri idi. "Qara şənbə" epitetinin özü də xanın qorxusundan günün qara gəlməli olduğu xalq simvolikasıdır.

***

Georgi Seretelinin sözlərinə görə, xan oyunu Murvanğrunun (Kar Murvan) ( Əməvilərin son xəlifəsi, ərəb qoşunlarının sərkərdəsi Mərvan II ibn Məhəmmədin gürcü mənbələrində adı - M.M.)



hücumlarından bizdə tədbiq olunmuşdur *("Kvali", 1893-cü il, № 6)*, "İveriya" XVII əsrə aid edir *("İveriya", 1888-cu il, №49).* "Kavkaz" qəzeti Şah Abbasın dövrününün *("Кавказ", 1889-cü il, № 49)*, A.Xaxanaşvili isə xan oyununu büdpərəstlik dövrünün qalıqları adlandırır *("Очерки по истор. груз. Словестности". Вып. III, стр. 363).* Lakin düşünürük ki, o ümumi xalqçılığın, kütləvi şənliyin daha elə bir ifadəsi olmalıdır ki, nə cürsə karnavallar və başqa bu növ əyləncələr şəklində bizə rast gəlir və buna da uşaq həvəsi ilə və sağlamlığı ilə gürcü milləti meyl edir. Qəmqüssə, bədbəxtlik gürcü xalqının həyatının ehtirasını və sevincini itirə bilməyib. Tarixin uzun dövrü boyu o, fədakarlıqla mübarizə aparır, lakin döyüşün elə ikinci günündə bu qanla yoğrulmuş arenada gülümsər halda onu oynaya bilər. Gürcü xalqının tarixi ağrıları azaldı və o da özünün dünənki qəm-qüssəsini əyləncəli tamaşaya çevirdi. Xan oyunu məhz belə əyləncədir. Bizim xalq kütləvi əyləncəni sevdiyi kimi heç nəyi sevmir... Qapalı, ailənin dar pərgarına çevrilmiş əyləncə onun sərgilənmiş təbiəti üçün buxovu təşkil edir. Ad günü, şənlik, cıdır, top – hər yerdə kütləvilik, hər yerdə coşqun kütləvi kef, xan oyunu da bu kütləvi əyləncənin nəcib ifadələrindən idi. Və məhz elə bununla o fakt da izah olunmalıdır ki, tez-tez bizim şairlər və ictimaiyyətin görkəmli şəxsləri xan oyununun başlıca personajları olurdular. Belə bir möhtəşəm xan oyunu Qriqol Orbelianinin planı və məsrəfi ilə baş sərdarlıq vəzifəsinin icrası zamanı, son xan oyunu isə bizim tanınmış şair Q.Abaşidzenin bilavasitə iştirakı ilə təşkil edilmişdir. Və bilmirik, yaxşıdır, yoxsa pis, bu kütləvi əyləncə unudulmağa məruz qaldı və şənlənmək otağın dar çərçivələrinə çevrildi?!

***(davamı gələn sayda)***

***Gürcü dilindən tərcümə edən:***
***Mirzə MƏMMƏDOĞLU***

# AVROPA İTTİFAQI İLƏ YAXINLAŞMA BİZƏ NƏLƏRƏ BAŞA GƏLDİ?

Cənubi Qafqazda yerləşən Gürcüstanın bütün göstəricilərə görə hər zaman ön pillələrdə olan Avropa ölkələri ilə sıxlaşan əlaqələr qurmağı şübhəsiz ki, ölkə əhalisinin əksəriyyətinin də dəstəklədiyi və arzu etdiyi rifah və yaşayış səviyyəsinə çatmaq üçün önəm verdikləri mövzudur. Bəs ölkəmizlə diplomatik əlaqələrin qurulmağa başladığı 90-cı illərdən günümüzə kimi Avropa İttifaqı və ona üzv olan ölkələrlə imzalanan müqavilələr, həyata keçirilən ortaq layihələr bizlərə nəsə qazandırdımı? Bu əlaqələr bizim İttifaqa üzv olaraq qatılmaq imkanımızı nə qədər artırır? Bu suallara cavab vermək üçün Gürcüstan-Avropa əlaqələrini gözdən keçirməyimiz şərtdir.

Gürcüstan ötən əsrin sonlarında “Qırmızı İmperiyanın” süqutundan sonra öz müstəqiliyyini elan edən 15 yeni respublikadan biri olmaqla yanaşı, həmçinin Avropa qitəsinin ən şərqində yerləşən, buna baxmayaraq Avropa mədəniyyətini mənimsəmiş, onunla zəif belə olsa davamlı bağlar qurmağı bacarmış bir ölkədir. Məhz elə bu bağlar sayəsində bir-birinin ardınca Avropa ölkələri yenicə müstəqilliyini elan etmiş Gürcüstanın suverenliyini tanımağa, ölkəmizlə diplomatik və ticarət əlaqələri qurmağa başladılar.

**İLKİN SOYUQ ƏLAQƏLƏR**

90-cı illərin qarışıqlıqlarında ölkəmizə qarşı beynəlxalq arenada elə də isti münasibətlər yox idi və Avropa İttifaqı bu yeni yaranan ölkələrə qarşı hər zaman münasibətlərdə balansı qoruyurdu. Çünki o dövrdə İttifaqa daxil olan dövlətlər üçün Cənubi Qafqaz ölkələrindəki vəziyyət elə də sabit deyildi və davamlı iqtisadi tərəfdaş axtaran Avropa üçün Gürcüstan elə də cəlbedici görünmürdü. Həmçinin bazar iqtisadiyyatı dünyasına yeni atılan dövlətin öz gəlir və xərclərini tarazlamaqda çətinlik çəkməsi bu münasibətlərə də müəyyən dərəcədə təsir edirdi. Düzdür, keçmiş “Şərq Bloku” ölkələrində yerli istehsalatını gücləndirmək və iqtisadiyyatda özəlləşdirməyə dəstək olmaq üçün 1991-ci ildə qurulan Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) maddi yardımları elə ilk illərdən Gürcüstana gəlsə də, bu, yetərli deyildi. Bu bank öz yardımlarını əsasən özəl sektorların inkişafına yatırdığı üçün dövlət müəssisələrinin fəaliyyətini davam etdirmək üçün hökumət xarici borclara üz tutmağa məcbur olurdu. Bu isə növbəti illərdə dövlət borclarının artmasına səbəb olacaqdı. Ancaq qeyd etmək lazımdır ki, Avropa Yenidənqurma və İnkişaf Bankı qurulduğu gündən Gürcüstanda ümumi dəyəri 3,8 milyard avro qiymətləndirilən 198 lahiyə həyata keçirmişdir.

**“AVROPA QONŞULUQ SİYASƏTİ” NƏDİR? MÜNASİBƏTLƏRDƏ İRƏLİLƏMƏ. 2006-CI İLDƏ HƏYATA KEÇİRİLMƏYƏ BAŞLAYAN “FƏALİYYƏT PLANI”**

Avropa Qonşuluq Siyasəti (ENP) Avropa İttifaqının Şərqi Avropa, Yaxın Şərq və Şimalı Afrika ölkələri ilə xarici əlaqələrin tənzimlənməsinə xidmət edən qurumdur. Bu qurum Avropa İttifaqının Gürcüstan da daxil olmaqla inkişaf etməkdə olan qonşu dövlətlərinin “Birliyə” daha yaxından inteqrasiya olunma və üzvlük məsələlərini müzakirə edir.

2006-cı ildə ikitərəfli əlaqələrin yaranmasının 10 illiyini qeyd edən Gürcüstan münasibətlərdə irəliləyiş yaşamağa başladı. Belə ki, Gürcüstanda müsbətyönlü dəyişikliklər etmək üçün Avropa İttifaqı Fəaliyyət Planı adlandırılan yeni yardımlar təklif etməyə başladı. Beş illik nəzərdə tutulan bu yardımlar uzun müddət ciddi şərtlərin hökm sürdüyü ölkədə dövlət və iqtisadi islahatların həyata keçirilməsi üçün nəzərdə tutulmuşdur. 2016-cı ilin 14 noyabrında bu Fəaliyyət Planı Brüsseldə keçirilən Avropa İttifaqı-Gürcüstan Əməkdaşlıq Şurasının (EU-Georgia Cooperation Council) sessiyasında təsdiqlənərək qüvvəyə mindi. Bu, ölkəmiz üçün mühüm bir addım idi. Çünki artıq dövlət qurumlarında və iqtisadiyyatda yeni islahatlar reallaşdıran Gürcüstana Avropanın mərkəzindən belə bir dəstəyin gəlməsi ona olan marağın artmasına, yeni tərəfdaşlarının yaranmasına səbəb oldu.



**ASSOSİASİYA HAQQINDA SAZİŞİN İMZALANMASI**

2011-ci ildə beş illik Fəaliyyət Planının tamamlanmasından sonra Gürcüstan və eləcə də Şərqi Avropa ölkələri Brüsselin gündəm mövzularından birinə çevrilməyə başladı. Birliyə qonşu olan qeyri-üzv ölkələrlə artıq daha üst səviyyəli danışıqlar aparmağın vaxtı gəlmişdir. Düzdür, 2008-ci ildə baş vermiş münaqişələr regionda qeyri-stabillik yaradaraq Avropanı Cənubi Qafqazdakı vəziyyət haqqında yenidən düşünməyə vadar etmişdir. Ancaq Gürcüstanla artıq möhkəm təməli qoyulmuş münasibətlər ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsinə, Assosiasiya haqqında Sazişin müzakirələrinin başlanmasına təkan verdi. Bu saziş İttifaqa üzv olan və qeyri-üzv ölkələr arasında imzalanan ən üst səviyyəli müqavilə kimi qiymətləndirilir. Müqavilə tərəflərin siyasi, iqtisadi, sosial və mədəniyyət sahələrində daha dərindən əməkdaşlığını nəzərdə tutur. 2012-ci ilin noyabrında danışıqların başlaması Gürcüstana faktiki olaraq Avropanın qapılarını açmış oldu. Həmçinin bu danışıqlar prosesinin başlaması ilə



ölkəmiz bu müqaviləyə alternativ variant olan, Rusiya, Belorus və Qazaxıstanın təşəbbüsü ilə yaranan Avrasiya Gömrük İttifaqına üzvlükdən imtina etmiş oldu. Qeyd edək ki, Rusiya Gürcüstanın bu müqavilənin danışıqlarına başlayacağı təqdirdə ölkəmizlə imzalanan azad ticarət haqqındakı razılaşmanı ləğv edəcəyini bildirmişdir. Bütün bunlara baxmayaraq Gürcüstan Avropa İttifaqını seçdi və 2014-cü ildə Avropa Parlamentinin bu razılaşmanı təsdiqəməsi ilə formal olaraq razılaşma imzalandı. 2016-cı ildə isə Assosiasiya haqqında Saziş qüvvəyə mindi.

**VİZA REJİMİNİN LİBERALLAŞMASI**

2012-ci ildə Avropa İttifaqı Assosiasiya haqqında Sazişlə yanaşı Gürcüstan vətəndaşlarının İttifaq ölkələrinə vizasız səyahət etmələrini reallaşdıracaq viza rejiminin liberallaşması məsələsinin də müzakirəsinə başlamışdır. Danışıqlar nəticəsində viza rejiminin liberallaşmasını təmin edəcək növbəti fəaliyyət planının həmin ilin sonuna kimi hazırlanacağı qərara alınsa da yeni plan 2013-cü ilin əvvəlində Gürcüstana təqdim edildi. Bu lahiyə həmçinin Gürcüstan hökumətinə sərhəd ərazilərin və miqrasiya prosesinin idarəsində yardımı da nəzərdə tuturdu. Bu, Gürcüstan vətəndaşlarının Şengen ərazisinə vizasız səyahət etmələri üçün atılan növbəti böyük addım idi. 2015-ci ildə yaradılan komissiya Gürcüstanın viza rejiminin liberallaşması üçün bütün şərtləri və öhdəlikləri təsdiqlədiyini elan etdi. Bir il sonra Avropa Komissiyası viza rejiminin ləğv olunmasını faktiki olaraq elan etsə də bəzi səbəblərə görə rəsmi açıqlama üçün 1 il yenə də gərəkli oldu. İlk rəsmi açıqlama Avropa Birliyinin jurnalında “Biometrik pasporta sahib olan Gürcüstan vətəndaşlarının artıq Şengen ərazisinə vizasız səyahət edə biləcəklər”i şəklində dərc olundu. 28 mart tarixində isə vizasız ilk uçuş reallaşdı.

Viza rejiminin liberallaşması ucuz işçi qüvvəsi axtaran Avropa və işsizlik faizinin yüksək olduğu Gürcüstan üçün də faydalı hesab edilirdi.

**BİRLİYƏ ÜZVLÜK MƏSƏLƏSİ**

Avropa Parlamentinin 2014-cü ildə qəbul etdiyi qətnaməyə əsasən, Gürcüstan, Moldova, Ukrayna və digər Avropa ölkələri perspektivə malik ölkələr elan edildi və onlara demokratik prinsiplər, insan haqları və azadlıq kimi fundamental qaydalara riayət edəcəkləri təqdirdə Birliyə üzv olmaq üçün müraciət haqqı tanındı. Gürcüstanlılar arasında keçirilən sorğu da ölkə əhalisinin 77%-nin Birliyə üzv olmağı dəstəklədiyini göstərdi. Uzun illərdir bu arzu ilə yaşayan Gürcüstan ölkədə həyata keçirdiyi köklü dəyişiklər və islahatlar sayəsində bu arzusuna heç olmadığından daha yaxındır. Sözsüz ki, Gürcüstanın Avropa yolunu seçməsi kənar qüvvələrin ölkəmizə qarşı təzyiq və nifrətinə də səbəb oldu. Bunun bariz nümunəsi olaraq 2008-ci ildəki münaqişəni misal göstərmək olar. Bildiyimiz kimi, həmin il faktiki olaraq Gürcüstan işğala məruz qaldı və bu aqressiv təyziqlər beynəlxalq arenada da özünü göstərirdi. Bütün bunlara baxmayaraq ölkəmiz öz yolu ilə inamla addımlayırdı.

Düzdür, Avropa İttifaqı ilə yaxınlaşma Gürcüstan üçün bir tərəfdən ağır itkilərə səbəb olsa da, digər tərəfdən dünyanın ən qabaqcıl, inkişaf etməkdə olan birliyinə üzv olmaq yolunda böyük uğurlar qazanması zamanla ölkəni yenidən qurmağa və itkilərimizi geri qaytaracağımıza zəmin yaradır.

**Səlahəddin PİRİYEV**
*Tbilisi Dövlət Universitetinin İqtisadiyyat və Biznes fakültəsinin tələbəsi*

İCTİMAİ QƏZET yeni_yol@mail.ru იენი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 AVQUST
2020-Cİ İL
№011 (115)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## GÜRCÜSTANDA "LAYİQLİ TƏRƏFDAŞ 2020" ADLI ÇOXMİLLƏTLİ HƏRBİ TƏLİM KEÇİRİLƏCƏK




Gürcüstanın Müdafiə Nazirliyinin məlumatına əsasən, bu il sentyabrın 7-dən 18-dək Gürcüstanda "Layiqli tərəfdaş 2020" adlı çoxmillətli hərbi təlim keçiriləcək.

"Vaziani" və "Norio" poliqonlarında ABŞ-ın dəstəyi ilə baş tutacaq təlimdə Gürcüstanla yanaşı, ABŞ, Böyük Britaniya, Polşa və Fransadan olan 2 700-dən çox hərbçi iştirak edəcək.

Təlimlərə Gürcüstanın Müdafiə Qüvvələrinin zirehli texnikası və artilleriya sistemləri ilə yanaşı, ABŞ-ın aviasiya və zirehli texnikası da cəlb olunacaq. Kombinə edilmiş manevrlər komanda, qərargah və çöl şəraitində keçiriləcək.

Təlimlərin məqsədi Gürcüstan, ABŞ və tərəfdaş ölkələrin silahlı qüvvələrinin hazırlıq səviyyəsinin yüksəldilməsi, həmçinin Qara dəniz bölgəsində sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsidir.

## SİSTEMDƏ NEÇƏ PENSİYA YAŞLI TƏCRÜBƏÇİ MÜƏLLİM VAR?



Baş nazir Giorgi Qaxaria 26 iyun tarixində parlamentdə çıxışı zamanı pensiya mükafatı proqramının davam etdirilməsindən söhbət açıb.

Onun sözlərinə görə, bu proqramın iki məqsədi var: pensiya yaşına çatmış müəllimlərə layiqli pensiya almaq imkanı yaratmaq və sistemin kompetensiyasını tez yüksəldəcək yeni, gənc müəllimlərlə dolması.

Ötən il qeyd olunan proqramdan 6000-ə yaxın pedaqoq yararlanıb və mükafat qarşılığında məktəbi tərk edib.

Müəllimlərin Peşəkar İnkişafı Milli Mərkəzinin məlumatına əsasən, pensiya yaşında olan təcrübəçi müəllimlərin sayı ölkə miqyasında 1 082 nəfər təşkil edir. Həmin proqrama yenidən qeydiyyatın nə zaman başlayacağı hələ ki, məlum deyil.

Pedaqoqların ümumi sayı isə 58 815-dir,onlardan 38 097-si baş müəllim, 2 912-si aparıcı müəllim, 262-si mentor müəllimdir. Təcrübəçi müəllimlərin ümumi sayı isə 12 211 nəfərdir.

## ÖTƏN AY GÜRCÜSTANA SƏFƏR EDƏNLƏRİN 96%-İ KİŞİLƏR OLUB



Gürcüstanın Milli Turizm Administrasiyasının məlumatına görə, 2020-ci ilin iyulunda ölkəyə 45 842 nəfər səfər edib ki, bu da ötən ilin analoji göstəricilərindən 94,8% azdır. Onlardan 44 027-si (96%) kişi, 1 815-i isə (4%) qadın olub.

Güman ki, bu il gender baxımından səyahətçilərin belə kəskin disbalansı yük daşımaları ilə bağlıdır. Yük maşınlarının sürücülərinin böyük qismi isə kişilərdir.

Səfər edənlərin yaş həddinə gəldikdə isə onların 58%-i 31-dən 50 yaşa qədər, 31%-i isə 51-dən 70 yaşa qədərdir.

DİN-nin Məlumat-Analitik Departamentinin verdiyi məlumata görə, ötən ayda Gürcüstana ən çox Ermənistan, Azərbaycan və Rusiyadan səfər edilib.

Səyahətçilərin 94,5%-i quru yolla, 3,9%-i hava yolu ilə, 04%-i qatarla, 1,3%-i isə dəniz nəqliyyatı ilə ölkəyə daxil olublar.

*Mənbə: bm.ge*

## GÜRCÜSTANIN ƏN ÇOX DONDURULMUŞ BALIQ ALDIĞI 5 ÖLKƏ



2020-ci ilin 7 ayı ərzində (yanvar-iyul) ötən ilin analoji dövrü ilə müqayisədə dondurulmuş balığın idxalı 11 fazi artıb. Milli Statistika Xidmətinin məlumatına görə, cari ilin 7 ayı ərzində Gürcüstan, ümumilikdə, 8,830 ton (15,422 milyon ABŞ dolları), ötən ilin analoji dövründə isə 7,934 ton (13,892 milyon ABŞ dolları) məhsul alıb.

2020-ci ildə Gürcüstanın ən çox dondurulmuş balıq aldığı 5 ölkə:

- İslandiya - 1,721 ton (3,352 milyon ABŞ dolları);
- ABŞ - 1,098 ton (1,861 milyon ABŞ dolları);
- Yeni Zelandiya - 1,060 ton (1,538 milyon ABŞ dolları);
- İspaniya - 1,048 ton (1,611 milyon ABŞ dolları);
- Norveç - 937 ton (1,970 milyon ABŞ dolları).

*Mənbə:bpn.ge*

## ÖLKƏDƏ İŞSİZLİK ARTIB




Milli Statistika Xidmətinin məlumatına əsasən, bu ilin II rübündə Gürcüstanda işsizlik səviyyəsi 12,3% olub.

İllik müqayisədə göstəricidə 0,9% artım qeydə alınıb.

Aprel-iyun aylarında şəhər yerlərində işsizlik 19,7%, kənd yerlərində isə 4,7% təşkil edib.

Kişilər arasında bu göstərici 12,7%, qadınlar arasında isə 11,8%-ə bərabər olub.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım Direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.